# BƏNDƏDƏN TANRIYACAN



Ulu Qarabağın taleyini poeziyaya gətirən və özü də uğurla gətirən şairlərdən biri də Eldar Ellidir. O 1956-cı ildə, Cəbrayıl rayonunun Hovuzlu kəndində anadan olub. Pedaqoji İnstitutun Filologiya fakültəsini bitirib. 13 kitabın müəllifidir. "Mən kimin ruhuyam", "Mənim dualarım", "Ömür sirli karvanımdır", "Öldür nifrətimi...", "Həyatın özü", "Əsir harayı", "Günəş dənizdən doğur", "Mənim Səməndər quşum" kitablarının müəllifidir və elə bu günlərdə daha bir kitabı işıq üzü görüb: "Bəndədən tanrıya gedən cığıram". Kitabın redaktoru filologiya elmləri doktoru, professor İsmayıl Kazımovdur. Kitaba Eldarın son illərdə yazdığı 300-dən çox şeiri cəmlənib. Özü də hiss olunur ki, onun ruhundakı duyğulanmaların yeni mərhələsi Qarabağ uğrunda savaşın qələbəsi ilə başlanıb:

*Göyərir vətənin qara daşları,*
*Bəxtimə gün düşür... elim sevinir.*
*Vətən göylərində qanadlı quşam,*
*Tanrıya açılan əlim sevinir.*

*Gün kimi doğmuşam, dünyaya görkəm,*
*Başını qaldırıb bənövşə ölkəm.*
*Anam Azərbaycan, türk oğlu türkəm,*
*Şirinim, şəkərim dilim sevinir.*

Zənnimcə, kitabda verilmiş ilk şeirin bu ilk iki bəndi onun poeziyasının yeni mərhələsinin proqram mahiyyətini ifadə edir. Eldar 40 ildən çoxdur ki, yazıb-yaradır. Onun ilk şeirlərinin hələ Cəbrayılda olarkən "Xudafərin" qəzetində dərc olunmasının da qızğın tərəfdarı olmuşam və iş elə gətirdi ki, ilk kitabına "ön söz" yazmaqla, redaktorluq da mənim üzərimə düşdü. Həmin ilk kitabda ("Mən kimin ruhuyam") özündən əvvəlki ruh doğmalarını çağırır və onlara müraciətlə deyirdi ki, mən sənin ruhunu qorudum, qardaş. Və bunun davamınca belə bir məntiq gəlir; məndən sonra kim, necə qoruyacaq bu ruhu - bu gələcyin işidir.

Eldar Ellinin (Eldar Məmmədvəliyevin) yaradıcılığını şərtləndirən çoxlu cəhətlər içərisindən biri daha qabarıq görünür. O, sözə yalvarmır. Elə bil ki, söz onun daxili-mənəvi mühitinin havasıdır, suyudur, çörəyidir. Və bu nemətlər əgər insan üçün ruzidirsə, elə Eldar Elli üçün də onun şairlik missiyasını qorumaq və ən başlıcası, öz missiyasını yerinə yetirmək üçün tanrı ətasıdır. Eldarın hələlik sonuncu kitabının istənilən bir səhifəsini açıram.

*Ot basıb sabaha gedən yolları,*
*Körpülər gör necə dayaqa üstədir.*
*Başıma mərmilər yağır göylərdən,*
*Təbrizim haçandır ayaq üstədir.*

*Mənim taleyimin sevgi payları,*
*Qaldı o xaraba kənd arasında.*
*Uşaq barmaqlarım bala batmadı,*
*Qalmışam noğulla, qənd arasında.*




Nə qədər həyati, nə qədər doğma düşüncələr... Nə olsun ki, Eldar qədərincə ədəbi mühitdə görünmədi, nə olsun ki, Eldar böyük ədəbi müsabiqələrin ödüllərini almağa həvəs göstərmədi. Amma bütün bunların hamısının əvəzində, sözün əsil mənasında böyük şair olaraq yaşayacağını təmin edəcək əsərlər yazdı, kitablar yazdı...

Qələminə sadiq qalmaq, yurddaşlıq missiyası daşıyan və tarix yaratmış olan bizdən əvvəlkilərin yolunu davam etdirmək Eldar Ellinin poeziyasının əsas qayəsi olub. Doğrudur, kitabda toplanmış şeirlərin hamısını eyni kökdə qəbul etmək olmur, amma hamısında bir əsas fikir hakimdir. Vətənə, yurda sevgi, insana sağlam duyğular aşılamaq, bir sözlə, həyata sevgi, inam hissini qorumaq... Düşünürəm ki, özünüifadə imkanına malik şair üçün bundan üstün missiya yoxdur. Eldarın dediklərinin içərisindən belə bir xətt çox aydın keçir: Mən vətənəm, vətən mənim içimdədir.

"Bəndədən tanrıya gedən cığıram" kitabı Eldarın şair ömrünün danılmaz uğurudur.

**Ə.ƏZİZLİ**

**Kredo.- 2022- ci il.- 24 avqust.- S. 16.**